# MÜSAHİBƏ

...

# *Filosof: "Nəyə görə ana müqəddəs olmalıdır?" – Müsahibə (I Hissə)*

Tarix 18.05.17, 11:30 Font ölçüsü : - / +



***Mail Yaqub: "Postmodernistlərə görə dünyanın təxminən 60%-i ateistdir, digər statistikada isə təxminən 40%-in ateist olduğu deyilir"***

***"Sovet dönəmində əgər bir dərsdə heç nə başa düşmürdünsə, bu "fəlsəfə dərsi" adlanırdı".***

PİA.AZ Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Mail Yaqublunun müsahibəsini təqdim edir:

**Dosye:** Mail Yaqub. 10 iyun 1979-cu ildə Azərbaycanın Cəlilabad rayonunda anadan olub. Xəzər Universitetinin və Tehran Universitetinin məzunudur. Fəlsəfə elmləri üzrə fəlsəfə doktorudur. 2011-ci ildə "Nitsşenin "Əxlaq geneologiyası" əsərinin təhlili və tənqidi" mövzusunda doktorluq dissertasiya işi müdafiə edib. 2009-cu ildə "Din fəlsəfəsi", 2012-ci ildə "Metafizika düşüncələri" kitabları Bakıda işıq üzü görüb. 2008-ci ildən Xəzər Universitetinin Fəlsəfə departamantində "Müasir Avropa fəlsəfəsi", "Əxlaq fəlsəfəsi", "Fəlsəfəyə giriş" və "Din fəlsəfəsi" fənnlərini tədris edir. Ailəlidir. 2 övladı var.

**- Mail bəy, Tanrıya inanırsınız?  Əgər inanırsınızsa, bu inam nəyə əsaslanır, dini etiqada, yoxsa məntiqi araşdırmaya?**

- Tanrıya inanıram. İnamımın əsaslandığı aspektə gəlincə, dini aspekti elmi-fəlsəfi aspektdən ayırmıram. Yəni, mənim üçün xurafat və mövhümatdan təcrid olunmuş, sağlam, fundamental zəkaya əsaslanan bir din var. Dediyim bu əsasları İslam dinində tapmaq olar. Həmin əsaslara söykənən din elmi-fəlsəfi aspektdən kənar deyil.

**- Fəlsəfəni bilmək filosof olmaq anlamına gəlimi? Yaxud da əksinə, filosof olmaq üçün fəlsəfəni öyrənmək vacibdirmi?**

- Bilirsiniz, "fəlsəfə nədir" və "filosof kimdir" sualı çox geniş və çətin sualdır. Ancaq "fəlsəfə nədir" sualı "filosof kimdir" sualından daha çətindir. "Fəlsəfə nədir?" sualının cavabı çətindir, amma o demək deyil ki, bu sualın cavabı yoxdur. Bu sahə çox genişdir. Hər zaman geniş insanlar və geniş sahələr tərifə çətin sığırlar. Çünki geniş insanların və geniş sahələrin aspekti çox olur. Tərifdə isə bütün aspektlər nəzərdə tutulmalıdır. Həmin insanın da min dənə aspekti varsa, sən o tərifdə min dənənin hamısını sıxışdırmağı bacarmalısan. "Tərif" isə adətən qısa və konkret olur. Məsələnin çətinliyi burdadır.

Bir xarici müəllif əsər yazmışdı.  Əsərin epiqrafında adətən müəlliflər əsəri  bir insana ithaf edirlər. Biri həyat yoldaşına, biri sevgilisinə, dostuna, anasına və s. insanlara ithaf edir. Həmin müəllif epiqrafında yazmışdı ki, mən bunu bütün dəyərli dostlarıma ithaf edirəm. Və o dəyərli dostların bir-bir adını çəkmişdi.  Bu, 52 səhifə olmuşdu. İndi sizin sualınıza cavab olaraq deyim ki, bəzi sualların cavabı başqa sahələrdə araşdırılmır. Yəni, konkret olaraq fəlsəfəyə aid olur. Misal üçün, "var" niyə var?!

Baxın, bir bina tikilir. Bina tikiləndə prinsipə uyğun olaraq otaqları boş olmalıdır. Daha sonra təmir edilir və ora mebellər, əşyalar  əlavə olunur. Bu əlavələrdən sonra yaşayış üçün uyğun olur. Ancaq "prinsip"ə uyğun olaraq, bina boş olmalıdır. Adətən prinsipə uyğun olan məsələlərə görə sual verilmir. Heç kim demir ki, bu otaq niyə boşdur, bu boşluğu burada kim yaradıb? Lakin otağa əşya qoyulanda sual verirlər ki, bu əşyanı kim gətirib?. Baxın, burada sualın yeri var. Çünki onun gətirilib otağa qoyulması prinsipə uyğun deyil. Bildiyiniz kimi, indi böyük kainat var. Bu kainatda "var"lar var. Əslində olmamalı idi axı. Kim gətirib qoyub bunları bura? Baxın, bu sualın cavabını fəlsəfədə axtarırlar. Aristotel deyib ki, ilk qüvvə burada var. Dində onun adını Tanrı qoyublar.

Fəlsəfədən xəbəri olmayan şəxsin filosof olmasına gəlincə, bu mümkündür. Çünki filosof xarakterli insanlar var. Bu insanlar fitrən fəlsəfi suallar verirlər. Fəlsəfə fitrətdən gəlir. Bu cür insanlar filosof yox, fəlsəfi düşünən insanlar olur. Filosof o adama deyirlər ki, hansısa sistem yaratsın.

## *Mail Yaqub: "50 il bundan öncə həyatı bir cür başa düşürsənsə, 50 il sonra isə tamam başqa cür başa düşəcəksən".*

**-Müasir fəlsəfə nəyi öyrədir, ya da nəyi öyrənir?**

- Öncəliklə, biz müasir deyəndə 19 və 20-ci əsri nəzərdə tuturuq. Təxminən 19-cu əsrin ortalarından indiyə qədərki dövr "müasir dövr" gedir. Bu dövrdə 6-7 fəlsəfi cərəyan ərsəyə gəlib. Bunlardan üçü – ekzistensializm, postmodernizm və  hermenevtika çox mühümdür.

Ekzistensializm – insanın daxili təbəddüatlarını öyrənir. Eksiztensialistlər deyir ki, filosofun missiyası kainatı kimin yaratdığını axtarıb tapmaq deyil. Eksiztensialistlərə görə,  maarrifçilik dövründə Con Lokk, Jan Jak Russo, Tomas Hobbs, Deni Didro, Volter filosof idilər, amma siyasətin əsaslarını qurublar. Yəni, filosof kimi hakimiyyətin əsaslarının mənşəyini axtarırdılar. Ancaq bu, filosofun missiyası deyil, qoy bunu siyasətçilər, hüquqşünaslar axtarsınlar. Filosofun əsas missiyası insanın daxilindəki iztirabları, təbəddüatları öyrənməkdir. Bu, ekzistensialistlərin şüuarıdır. Bu insanlar ədəbiyyata daha çox yaxınlaşırlar. İki ekzistensialist filosof Albert Kamyu və Jan Pol Sartr 20-ci əsrdə ədəbiyyat üzrə Nobel mükafatı aldılar.

Hermenevtika - mətnin obyektiv  və subyektiv əsaslarına görə mənasını müəyyən etmək üçün şərh məharəti nəzəriyyəsidir. Təsəvvür edin ki, qarşınızda bir mətn var. Bu mətn 1000 il bundan qabaq yazılıb. Ancaq sən mətni indi oxuyursan. Bu mətni indi necə başa düşəsən, min il bundan qabaqkı atmosferlə, yoxsa indiki

atmosferlə? İnsan 1000 il bundan qabaq mətni bir cür başa düşürdü, ancaq indi tamam başqa cür başa düşür. Ümumiyyətlə, başa düşə bilərmi? Hermenevtika məhz bunu araşdırır. Hermenevtikada deyilir ki, mətn deyərkən təkcə yazılı mətn deyil, kainat-həyat da bir mətndir. Mən həyata bir dəfə baxıram, bir cür anlayıram. Lakin 10 ildən sonra isə başqa cür anlayıram. Alman filosof Hans-Georq Qadamer deyir ki, insanın həyat dərki "historikal"dır (historical). Yəni, 50 il bundan öncə həyatı bir cür başa düşürsənsə, 50 il sonra isə tamam başqa cür başa düşəcəksən.

Postmodernizm isə bütün formaları, qaydaları, ehkamları inkar edən bir cərəyandır. Postmodernistlər deyir ki, indiyə qədər konkret bildiyimiz hər şeyi dağıtmalıyıq. Yəni, əxlaqlı-əxlaqsız, güclü-zəif anlamı artıq yoxdur. Postmodernistlər həmin konstruksiyanı dağıdırlar.

**-Azərbaycanda filosof məktəbi varmı? Və yaxud da nə zamansa olubmu?**

- Gəlin, biz Azərbycanı tək bir ada kimi düşünməyək. Azərbaycan tarixən ümumi müsəlman Şərq məkanının bir hissəsi olub. Ümumiyyətlə, müsəlman dünyasında üç əsas fəlsəfi cərəyan olub. Bunlar İbn Sinanın təmsil etdiyi "Məşşailik", Azərbaycan filosofu Şihabəddin Sührəvərdinin başçılıq etdiyi "İşraqilik" fəlsəfəsi və Sədrültəllihin adlı islahatçı filosofa xas olan "Mütəaliə" fəlsəfəsidir. Hər üç cərəyan İslam fəsləsəfəsinə aiddir.

Məşşailik cərəyanına görə, həqiqətlərin üzə çıxması üçün axtarışda olan adamın əməli mərhələlər keçməsi, ruhunu paklaşdırması zəruri deyil, yalnız əqli sübutlar və rasional gediş kifayət edir.

İşraqilik fəlsəfəsinə görə ilahi həqiqətlərin kəşfi əməli mərhələlərdən keçib, ruhunu paklaşdıraraq, İlahidən kömək almaqla müyəssər olur.

Mütəaliə fəlsəfəsi isə hər iki cərəyanı sintez elədiyini bildirir.

Əslində Qərbdə olduğu kimi, müsəlman Şərq dünyasında fəlsəfi cərəyanların sayı çox deyil. Çünki Quran konkret mətn kimi istinad mənbəyi olub və başqa fəlsəfi xəttlərin ərsəyə gəlməsinə bir o qədər də ehtiyac duyulmayıb.

İbn Sinanın şagirdi Bəhmənyar ibn Mərzban azərbaycanlı olub. Ancaq elmdə bir insanın etnik mənsubiyyətini çox araşdırmırlar. Çünki o, ümumən bəşəriyyətə mənsubdur.

**-XXI əsrdə Azərbaycanda özünə filosof deyən adam varmı?**

-Xeyr, Azərbaycanda özünə filosof deyən şəxs yoxdur.

## *Niyə Tanrı öz mələyinin haqqını verir və bəndəsinin haqqını tapdalayır? - Müsahibə (II Hissə)*

19 May 2017, 11:36



***Mail Yaqub: "Ədalətsiz Tanrıya inanmaq, əslində Tanrını inkar etmək deməkdir"***

***"Mən sizi 100% əmin edirəm ki, son 30 ildə bəzi Qərb ölkələrinin xüsusi proqramları əsasında müsəlmanlardan ibarət terrorçu qruplar yaradıblar".***

PİA.AZ Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru Mail Yaqublunun müsahibəsinin iikinci hissəsini təqdim edir:

Birinci hissəni **BURADAN** oxuya bilərsiniz.

Dosye: Mail Yaqub. 10 iyun 1979-cu ildə Azərbaycanın Cəlilabad rayonunda anadan olub. Xəzər Universitetinin və Tehran Universitetinin məzunudur. Fəlsəfə elmləri üzrə fəlsəfə doktorudur. 2011-ci ildə "Nitsşenin "Əxlaq geneologiyası" əsərinin təhlili və tənqidi" mövzusunda doktorluq dissertasiya işi müdafiə edib. 2009-cu ildə "Din fəlsəfəsi", 2012-ci ildə "Metafizika düşüncələri" kitabları Bakıda işıq üzü görüb. 2008-ci ildən Xəzər Universitetinin Fəlsəfə departamantində "Müasir Avropa fəlsəfəsi", "Əxlaq fəlsəfəsi", "Fəlsəfəyə giriş" və "Din fəlsəfəsi" fənnlərini tədris edir. Ailəlidir. 2 övladı var.

**- Cənnət və cəhənnəmə inanırsınız?**

-Bəli, inanıram. Əgər siz Tanrıya inanırsınızsa, onun ədalətinə də inanmalısınız. Ədalətsiz Tanrıya inanmaq əslində Tanrını inkar etmək deməkdir. Tanrı ədalətlidirsə, bu qədər haqsızlıqların cavabsız qalması mümkün deyil. Mütləq şəkildə ölümdən sonra həyat olmalıdır. Bunu yunan alimləri Platon da, Pifaqor da deyib. Ruh ölmür.

**- Sizcə cəhənnəmin var olan şəkildə təqdim olunması Tanrının ədalətsizliyinə dəlalət etmir? Əgər mən valideynlərimi, ölümü seçə bilmirəmsə və hər şey planlaşıdırılıbsa, o zaman mənə verilən cəza ədalətlidirmi?**

- Mən az öncə dedim axı, insan azaddır. İnsan öz yolunu dəyişə bilir. Biz milyonlarla insan görmüşük ki, çox yoxsul ailədə dünyaya gəlib, atası-anası çox pis tərbiyə görüb. Lakin bu insan öz iradəsi ilə təhsil alıb, çalışıb, gözəl və ağıllı insan olub. Belə nümunələr kifayət qədər çoxdur. Dünya şöhrətli müsəlman filosofu İbn Sinanın bir sözü var:" Hər bir şeyin mümkünlüyünə ən tutarlı dəlil onun bir dəfə baş verməsidir".Yəni əgər bir nümunə bir dəfə baş veribsə, demək milyonlarla nümunə baş verə bilər. Dünyada mövcud olan bütün problemlərin kökündə insan özü dayanır.

**- Sizə elə gəlmir ki, insana faili-muxtarlığın verilməsi, onu sadəcə Tanrı və onun mələyi arasında oyuncağa çevirib? Yəni, Tanrı insanın o qədər iztirab çəkməsinə ona görə dözür ki, öz mələyinin haqqını verir, amma bu zaman bəndəsinin haqqını tapdalayır.**

- İngiltərənin bəzi universitetləri var ki, orada imtahanlar açıq şəkildə keçirilir. Yəni, imtahanlar zamanı tələbə kitabxanada oturub istədiyi kitablardan istifadə edə bilir. Amma buna rəğmən tələbələr kitablardan istifadə etmir. Onlar öz biliyini yoxlamaq istəyirlər. Çünki tələbələr üçün əsas dəyərli fakt bilik səviyyələrinin necə olmasını bilməkdir. Amma, kitablardan istifadə etsələr, öz biliklərini dəyərləndirə bilməzlər.

İnsan da belədir. Əgər insan mələklər kimi məcburən iradəsiz varlıq olsaydı, onun dəyəri bilinməyəcəkdi. Yəni, insan yaxşı bir iş görür, pis işdən çəkinir və məhz bu mücadilədə dəyər qazanır.Yoxsa ki, mən əli-qolu bağlı, heç bir şey etmədən oturum, burada hansı dəyərdən söhbət gedə bilər? İnsanın dəyəri də zəhmətlə ərsəyə gəlir. Mən əgər başqa insanlara zəhmət çəkib kömək edirəmsə, bu da mənim dəyərim sayılır. Ümumiyyətlə, əziyyət nə qədər çoxdursa, dəyər bir o qədər də çox olur.

## *Mail Yaqub: "Mən insanlara kömək edirəmsə, bu da mənim dəyərim sayılır".*

**- Niyə əksər insanlar folosoflaradəli kimi baxır? Buna səbəb nə ola bilər?**

- Mənim bir müəllimim deyirdi ki, şair bir az dəli olmalıdır ki, şeir yaza bilsin. Burada "dəli" olmaq ənənəvi dəli olmaq mənasında deyil.Yəni, dekonstruksiya edə bilməlidir, streotipləri aşa bilməlidir. Məsələn, şairlər hər hansı əşyaya başqalarının baxdığı kimi baxmır. Ona görə şeir, ədəbiyyat ərsəyə gəlir. Eyni vəziyyət filosoflara da aiddir. Filosoflar üçün sual yaradan məsələlər adi insanlar üçün sual deyil.

Təbii ki, "filosoflar dəlidir" ifadəsi yanlışdır. Çünki filosoflar Qərbdə xüsusilə də, XVII əsrdən sonra bütün ictimai-siyasi proseslərin içindədirlər. Hətta XX əsrdə ədəbiyyat üzrə iki Nobel mükafatı almış filosoflar var. Əgər filosoflar dəlidirsə, onda Nobeli onlara niyə verirdilər.

**- Özünü dərk nədir? Sizcə, sufizm dini təriqətdir, yoxsa fəlsəfi cərəyan?**

- Sufizm fəlsəfi-dini təriqətdir. Mən bu anlayışları tam ayıra bilmirəm. Fikirləşirəm ki, bunların sərhədləri tam ayrılmır. Yəni, dinin özünün də fəlsəfi tərəfləri var. Məncə, sufizm din rəngində fəlsəfi təbəddüatları olan cərəyandır. Məsələn, biz sufizmdəki vəhdəti-vücud nəzəriyyəsinin başqa formasını Hegeldə, Spinozada ("Panteizm" nəzəriyyəsində) görə bilərik. Düzdür, onlar demir ki, bunlar Tanrıdır. Onlar təbiəti bütövlükdə Tanrı hesab edirlər. Əslində Tanrını inkar etdiklərini görürük.

Məşhur alman filosofu Hegel vəhdəti-vücud nəzəriyyəsinə bir az yaxınlaşır. O deyir ki, bir vahid ağıl var və o hərəkət edir. Nədir bu vahid ağıl? Bizdə buna vəhdəti-vücud deyirlər. Bu nəzəriyyəyə görə, bütün kainat birdir, o da Tanrıdır. Qalanları təfərrüat və Tanrının kölgəsidir. Çox dərin və fəlsəfi olan bu fikir özündə bir çox şeyləri ehtiva edir. Biz bunun köklərini Qərb fəlsəfəsində tapa bilərik.

Burada həm də dini çalarlar güclüdür. Yəni, belə deyək ki, bu nəzəriyyənin kökü fəlsəfidir, ona zinətlərlə yaraşıq verən dindir.

**- Sizcə, Ənəlhəq anlayışı doğrudurmu? İnsanın Tanrı olmaq iddiası, yəni "Allah məndədir" deməsi nə qədər realdır?**

- Sədi Şirazinin belə bir sözü var: "Bütün yalanlar tərk olunmalıdır, heç bir yalan deyilməməlidir. Amma eyni zamanda o bütün doğruların da deyilməsi bəzən düzgün deyil". Təəssüf ki, Ənəlhəq də həmin doğrulardandır və deyilməməlidir. Təbii ki, vəhdəti-vücud nəzəriyyəsindən xəbərdar olmayan qatı dindar kütlə üçün bu anlaşılmaz idi.

**- XVII-XVIII əsrlərdə Qərbdə maarrifləndirici fəlsəfi cərəyanlar var idi. İslam dünyasında isə əksinə zülmət hökm sürürdü. XXI əsr olmasına baxmayaraq, İslam dünyasında hələ də o zülmət davam edir. İslamla "terror" anlayışı eyni götürülür. Bunun yaranma səbəbləri haqqında nə deyə bilərsiniz və bundan sonrakı dönəmdə İslamda maarrifləndirici fəlsəfi cərəyanların meydana çıxması və modern tələblərə cavab verməsi mümkündürmü?**

- Çox maraqlı və geniş cavabı olan sualdır. Mən konkret bir neçə məqamı vurğulayacağam. Əvvəla, düzgün vurğuladınız ki, XVI-XVII əsrə qədər Avropada qaranlıq dövr hökm sürsə də, islamda çiçəklənmə gedirdi. Lakin sonra vəziyyət dəyişdi, islam dünyası tənəzzüllə uğradı. Bəzi tədqiqatçılar İslamın tənəzzülə uğramasının səbəbini islam dünyasındakı sufizm və xristianlıqdan gələn prinsipə oxşar prinsipin geniş yayılmasında görürlər.

Xristianlıqda röhbniyyət var. Yəni,bu dünyadan təcrid olmaq, dünya malına ehtinasız olmaq. Həmin araşdırmaçıların fikrincə xristianlardakı röhbaniyyət ruhu sufizm cərəyanı şəklində İslam dünyasına sirayət etdi. Sanki İslam dünyasını dünya həyatından təcrid etdi və təbliğ etdi ki, dünya malı ötəridir.

***Mail Yaqub: "Ənəlhəq o, doğrulardandır ki, deyilməməlidir".***

Sizin ikinci sualınızın cavabı - müasir dövrdə bu ətalət niyə yarandı və hələ də davam edir?

Əvvəla, onu qeyd edim ki, XXI əsrdə bəzi müsəlman ölkələrində intibah var. Məsələn, Malaziya, İndoneziyada Türkiyə, Pakistan, İranda nanotexnologiyası, nüvə, tibb və digər elm sahələri üzrə intibah və inkişaf var. Hətta Malaziyaya texnologiyanın inkişafına görə "Asiyanın Cənub-Şərqinin Yaponiyası" deyirlər. Bu göstərir ki, islam aləmində müəyyən sıçrayışlar var. Buna görə də tam qaranlıq demək düzgün deyil. Neçə yüz milyon əhalisi olan İndoneziya, Türkiyə, Malaziyada müəyyən intibah var və biz bunu görməməzlikdən gəlməməliyik. Amma təəssüflər olsun ki, ümumi qaranlıq mənzərə də var. Və bu qaranlıq mənzərə bütün müsəlman dünyasına ləkə gətirib. Burada iki məsələyə diqqət ayırmalıyıq.

Birinci məsələ odur ki, hansı ölkələr ki, İslamın izahını düzgün verib, onlar inkişaf edib və dünyaya açılıblar. Buna Malaziyanı, İndoneziyanı misal göstərmək olar. Bunlar modernizmlə İslami sintez edə biliblər. Çünki son 200 ildə müsəlman ölkələrində ən çox müzakirə edilən məhz bu məsələ idi. Bir ənənəmiz var, bir də müasirlik var. Biz ənənəmizi qoruyub müasir ola bilərikmi?

İkinci fakt isə daha dərindir. Burada müsaəlmanların alətə çevrilməsi üçün məqsədyönlü fəaliyyər var. Mən sizi 100% əmin edirəm ki, son 30 ildə bəzi Qərb ölkələrinin xüsusi proqramları əsasında müsəlmanlardan ibarət terrorçu qruplar yaradıblar. Bunu inkar edən adama siyasətçi kimi baxmıram. Əgər bir politoloq Azərbaycanda və dünyanın hər hansı bir yerində bunu inkar etsə ki, İŞİD ABŞ-ın layihəsi deyil, mən ona sadəcə gülərəm.

**-Niyə alətə çevirirlər?**

- Alətə çevrilmək dini mənsubiyyət məsələsi də deyil. ABŞ-ın paytaxtı Vaşinqtondan bir saat məsafədə bir qəbilə yaşayır. Onlar müasir dünyanın heç bir atributunu qəbul etmirlər. Bunlar müsəlman olmasalar da, xristianlığın hansısa qoluna aiddirlər. İslam dinində özünü müdafiə-cihad prinsipi var. Bu prinsip bütün hüquq sistemlərində mövcuddur. Yəni, əgər sənin dövlətinə hücum olunursa, sən özünü müdafiə etməlisən. Amma İslamdan bu prinsipi götürərək onu xüsusiləşdirib böyütmək və buna milyardlarla pul yatırmaq, daha sonra isə bundan terrorçu qrup yaratmaq elə də çətin deyil. İndi maraqlı bir sual ortaya çıxır. Niyə məhz müsəlmanlara qarşı bu hadisə baş verir? Bu çox qəribə və araşdırmalı sualdır. Ümumiyyətlə, mənə görə həmin supergüclərin içində İslamın inkişafına qarşı geniş qəzəb və nifrət var. Və mənə görə dünyadakı müharibələr həm də ideolojidir. Onun tərkibində çox geniş iki amil var: kapital və ideoloji amil.

Kapital amili ona görə rol oynayır ki, müsəlmanlarda neft var, lakin artıq neft əvvəlki əhəmiyyətini itirib. Amma ideoloji məsələ yerindədir. Sevindirici haldır ki, müsəlman dünyasında da intibah, özünü tanıma baş verir.Yəni, müsəlman dünyası da sakit oturmayıb. Məsələn, Malaziyanın baş naziri Ramazan ayında milli geyimdə namaz qılır və müsəlman kimliyini qoruyur. Malaziya müsəlmanlığını qoruya-qoruya Asiyanın cənub-şərqinin Yaponiyasına çevrilir. Mən ideoloji mübarizə deyəndə İŞİD-i nəzərdə tutmuram. İŞİD intibah deyil, müsəlman dünyasına bir rəzalətdir.

## *Mail Yaqublu: "Əgər bir politoloq Azərbaycanda və dünyanın hər hansı bir yerində bunu inkar etsə ki, İŞİD ABŞ-ın layihəsi deyil, mən ona sadəcə gülərəm".*

**- Mail bəy, seminarlarda iştirak edirsiniz və yəqin ki, müasir gənclər barədə sizdə hansısa fikirlər formalaşıb. Bu baxımdan müasir Azərbaycan gəncini necə təsəvvür edirsiniz? Azərbaycan gəncinin həyata baxışını normal hesab edirsiniz?**

- İcazə verin, mən pafosdan kənar onu bildirim ki, müasir Azərbaycan gənci dünyanın potensiallı və ən qabaqcıl gənclərindəndir. Onlar olduqca tərbiyəli, əxlaqlı, məqsədli, enerjili, potensiallı, istedadlı, dərin düşüncələrə vara bilən, çalışqan, optimist xüsusiyyətlərə malik gənclərdir. Təbii ki, istisnalar da çoxdur. Amma, istisnalar qaydanı pozmur. Mənim üç minə yaxın Xəzər Universitetində, bir o qədər də başqa yerlərdə tələbələrim var. Mədəniyyət kanalında "Məclisi-üns" verilişində yüzdən çox verilişim olub. Azrbaycan radiosunda, özəl internet televizoya kanallarında mütəmadi çıxışlarım olur. Bunlardan əlavə seminarlarım olur. Gənclərlə hər bir görüş mənim üçün unudulmaz xatirəyə çevirilir. Həqiqətən də onlardan o qədər zövq alıram ki. Və sizi əmin edirəm, Azərbaycanın gəncləri bu intellektlə ölkəmizi gələcəkdə gülüstana çevirə biləcək potensiala malikdirlər. Amma yenə də qeyd edirəm ki, istisnalar həmişə olub, lakin mən gördüyümü deyirəm.

**- Sizcə, cəmiyyətimizdə o mühit varmı?**

-Təəssüflər olsun ki, bunun üçün mühitin tam olduğunu deməzdim, amma potensiallı gənclərimiz kifayət qədər çoxdur. Və bizim mövcud vəziyyətimiz həmin istedadlıların ölkədə tam çiçəklənməsinə şərait yara bilmir.

**- Necə hesab edirsiniz, burada siyasi səbəblər varmı? Çünki Azərbaycanda monopoliya var və bu monopoliyanın yaratdığı siyasi mühitdir. Məsələn, mənim vəzifədə bir qohumum yoxdursa, mənim uşağım gedib hansısa vəzifədə işləyə bilərmi? Bunlar sosial problemlər olsa belə siyasi mahiyyət daşıyır.**

- Təbii ki, sosial-iqtisadi səbəbləri var. Siyasi səbəblər deyərkən tam nəyi nəzərdə tutduğunuzu bilmirəm. Amma, mən sizə siyasi baxımdan elə avtoritar

ölkələr göstərə bilərəm ki, məsələn, Ərəbistanda, Küveytdə iqtisadi potensial yüksək olduğuna görə insanlar siyasətdən narazı deyillər. Çünki sosial təminat yüksək səviyyədədir. Mən iqtisadi-sosial təminat məsələsinə çox böyük önəm verirəm. Və mənə elə gəlir ki, Azərbaycanda sosial həyat normal olsa, siyasi problemlər özünü o qədər də büruzə verməyəcək.

**- Siz Azərbaycanlıları meşşan hesab edirsinizmi?**

- Təəssüf ki, Azərbaycanda müəyyən təbəqələrdə meşşanlıq var və biz bunun eybəcər təzahürlərini görürük. Amma bunu əldə bayraq edib deyə bilmərəm ki, Azərbaycan büsbütün meşşan cəmiyyətdir. Bu, Azərbaycan insanına heç yaraşmır. Çünki Azərbaycan insanı fitrən, daxilən, potensial olaraq meşşan deyil. Mən sizə deyim ki, meşşanlığın əsas səbəbi təhsilsizlikdir.Təhsili və dünyagörüşü geniş olan cəmiyyətlərdə meşşanlıq səviyyəsi aşağıdır.

**- Sizcə, bu yarımçıqlıq sindromu deyilmi? Yəni, bizim cəmiyyətdə diletantlar çoxdur. Və bu da cəmiyyətdə bir kompleksə çevrilib?**

- Ramiz Rövşənin "Azad Qadın" heykəlinə yazdığı şeiri var. O,"Azad Qadın" heykəlinə müraciətlə deyir ki:

Nə üstdən aşağı baxırsan bizə?
Yoxsa bizi də sən doğmusan, qadın?
Sənin doğduqların azad deyilsə,
Özün necə azad olmusan, qadın?
Yox, sənin azadlığın yarımçıqdır deməli,
Sən də yarımçıqsan, biz də yarımçıq.
Yaxşımız da, pisimiz də yarımçıq.

Əslində Azərbaycan cəmiyyətindən danışarkən elə özümüz, öz kostyumumuz, köynəyimiz haqqında danışırıq və özümüzü  tənqid edə bilərik. Biz öz dərdimiz haqqında danışırıq.Təəssüflər olsun ki, meşşanlıq bir yara kimi bəzən xalqımızın üzərində görünür.

**- M.Ə.Sabir, Mirzə Cəlil, M.F.Axundzadə, hətta Fətəlidən bu tərəfə Azərbaycanın mental dəyərlərində və düşüncələrində nələr dəyişib?**

- Təbii ki, mental dəyərlərdə - qadına və insanların bir-birinə olan münasibətində dəyişən çox şey var. Çünki burada təhsil məsələsi var və irəliləyişlər çoxdur. Biz Sovet vaxtını tənqid etsək də, orada müsbət məqamlarda var idi. Müsbət məqamlardan biri də Azərbaycan insanının kütləvi şəkildə təhsil alması və kitabların kütləvi tirajlarla çap olunması idi. Hətta kitablar 50 -100 min tirajla çap olunurdu. Bunlar müsbət nüanslar idi. Bunların hamısının mental dəyərlərə təsiri var idi. Bayaq söhbətimin əvvəlində dediyim kimi, ədəbiyyatın insan psixologiyasına, davranışlarına 100% təsiri var. Heç kim bunu dana bilməz.

Bəzən ədəbiyyatçılar çox pessimist danışırlar və deyirlər ki, ədəbiyyatçı "əxlaq müəllimi" deyil. Əksinə mən düşünürəm ki, ədəbiyyatçı elə "əxlaq müəllimi"dir. Xeyli irəliləyiş olsa da, problemlər də az deyil. Və bizim hər gün xalqın acısını

görən, yazan, analiz edən, xəyallara dalmayan, çıxış yolunu göstərən mütəffəkkir filosoflara ehtiyacımız var.

Bizim Əli bəy Hüseynzadələrimiz, Hüseyn Cavidimiz olub. Ona görə də təəssüf ki, bizdə ictimai münasibətlərdə hələ də problemlər çoxdur. Məsələn,buna şəhərdə yerli-yersiz verilən siqnallar, növbədə durmaq mədəniyyətinin hələ də tam formalaşmaması nümunə ola bilər. Biz hələ də bu problemləri yaşayırıq.Bunlar adi görünə bilər, amma çox ciddi problemlərdir. Mən başqa ölkələrdə siqnal səsinə az şahid olmuşam. Amma çox ümidliyəm ki, Azərbaycan insanı dünyanın ən qabaqcıl insanına çevrilə biləcək. Mən bu inamla yaşayıram və bu inamla da tələbələrimə xidmət edirəm. Bu çox vacib şərtdir. Onları öz övladlarım kimi bəsləyirəm və sevirəm. Çünki mən onların "gələcəyin insanı" olduqlarını bilirəm və sanki onları formalaşdırıram. Bu mənim missiyamdır.

## *Mail Yaqublu: "Azərbaycan cəmiyyətindən danışarkən elə özümüz, öz kostyumumuz, köynəyimiz haqqında danışırıq".*

**- Ailə münasibətlərində deformasiyalar yaşanır. Sizcə, bunun səbəbi nədir?**

- Ailə deformasiyalarının səbəbləri çoxdur.Və Qərb modelinin Azərbaycana gəlməsi ailə struktuna müəyyən ziyanlar vurub. Məsələn, Amerikada hər iki ailədən biri boşanır. Bunun da sonradan problemləri çıxır. İnformasiyanı quşa

bənzədirlər ki, o qəfəsdən çıxır və artıq geri qayıtmır. Bu informasiya axını bütün dünyaya yayılıb. Siz nə qədər istəsəniz də feysbukun və digər social şəbəkələrin qarşısını ala bilməzsiz. Bu mümkün deyil. Və mən böyük ürək ağrısı ilə deyirəm ki indi ailənin sağlam qalması çətinləşib. Bilirsiniz, biz informasiyanın qarşısını ala və ya bunu qadağan edə bilmərik. Ya da xəyanətin qarşısını almaq üçün ər xanımını və ya xanım ərini güdməsi absurd şeylərdir. Çünki güdməklə, ya da qadağan etməklə heç nə  alınmayacaq.

Bizim yeganə yolumuz ənənəvi "ailə müqəddəsdir" prinsiplərinə və əxlaqına sadiq qalmaqdır. Mən burada əsas vəzifəni kişinin üzərinə qoyuram. Kişi gərək həyat yoldaşına qarşı o qədər diqqətcil olsun ki, o xanım diqqətsizlikdən ac olmasın. Xanım zərifdir. Gərək kişi o qədər həssas olsun ki, öz diqqəti ilə ailənin sağlamlığını qoruyub saxlasın. Əgər lazım gəlsə,  xanımının qarşısında diz çöksün, yalvarsın, ağlasın da. Bəzən deyirlər ki, kişilər ağlamaz, amma bu yalnışdır. Kişi də insandır, qəlbi var, hissi var.  Qoy xanım görsün ki, kişi onu nə qədər sevir və öz vicdanı onu xəyanət etməyə qoymasın. Məncə, yeganə çıxış yolu budur.

**- Bu yaxınlarda bir paylaşımınızda "Görəsən biz nə vaxt pafosdan xilas olacağıq" sualını vermişdiniz. Bu suala özünüzün cavabınız nə olardı? Və bizi pafoslu olmağa məcbur edən nədir?**

- Sovet vaxtı teatr və filmlərdəki danışıqlarda pafos dəbdə idi. Bu pafosla danışmaq Sovet dövründən qalıb. Məsələn, mən özümü pafosdan kənar müəllim hesab edirəm. Mən lazım gördükdə dərsin əvvəlində, ortasında, sonunda şeir deməyə başlayıram və dərsimin konstruksiyasını pozuram. Bəzən uşaqların yorğun olduğunu görəndə 5 dəqiqə yox, 15 dəqiqə şeir deyirəm. İstəyirəm ki, uşaqlar dərsə həvəslənsinlər, ruhlansınlar. Sizə qəribə gəlsə də deyim ki, bəzən dərs prosesində hansısa sözüm tələbəmin qəlbinə toxunubsa dərhal bütün tələbələrin qarşında həmin tələbədən üzr istəmişəm.

Məncə, pafosdan çıxmağın yeganə yolu təhsilə çox önəm verməkdən keçir. Bəzən deyirlər ki, təhsillə bərabər əxlaqa da önəm verilməlidir. Bu aydın məsələdir və müzakirəyə belə ehtiyacı yoxdur.

Əxlaq hər kəsə lazımdır. Əxlaq taksi şürücüsünə, kənddə təsərrüfatla məşğul olana, alimə də zəruri şərtdir. Pafos bizə çox vaxt bilmədiyimiz şeyləri gizlətmək, ört -basdır etmək üçün lazım olur.

Bir neçə gün bundan qabaq dövlət televiziyasında iki saata yaxın Hüseyn Cavid barədə veriliş gedirdi. Mən oturub həmin verilişə baxdım və sizi inandırım ki, Hüseyn Cavidin fəlsəfəsindən heç bir şey deyilmədi. Ancaq "Hüseyn Cavid kimi heç kim yazmırdı deyə, müasirləri ona paxıllıq edirdi", "Cavid böyük şair idi", "Cavid sürgünə gedəndə çox əzablar çəkmişdi" və s. bu kimi pafoslu fikirlər səsləndirirdilər. Bəs Cavidi Cavid edən nə idi? Cavidin "Şeyx Sənan"-ı nəyi aşılayırdı? Bu əsər başdan-ayağa fəlsəfədir. Bizim "Məclisi-Üns"-də bu barədə verilişimiz olub. Bu obraz aktualdırmı ya yox? Bəli. Fəlsəfi fikir bütün zamanlar üçün aktualdır.

***Azər*** QARAMANLI

***Gülşən*** ŞƏRİF
***pia.az***